İPƏK YOLU, No.1, 2024, səh.33-43
https://doi.org/10.30546/1810-911X.2024.1.33

# REGİONUN TARAZLAŞDIRILMIŞ İNKİŞAFININ NƏZƏRİ ƏSASLARININ TƏHLİLİ

**Rifat Həsənov**

Naxçıvan Universiteti, Naxçıvan, Azərbaycan
e-mail: rifat.hasanov@icu.az

**Xülasə.** Hal-hazırda dünya təsərrüfat əlaqələrinin müstəqil iştirakçısı kimi hər bir dövlətin, o cümlədən Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı onun regionlarının tarazlı inkişafından asılıdır. Məqalədə tarazlı regional inkişaf konsepsiyası təhlil olunaraq ona keçidin zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır.

**Açar sözlər:** Regionların sosial-iqtisadi inkişafı, regionun tarazlı inkişafı, təbii və iqtisadi resurslar, dayanıqlı inkişaf.

**ANALYSIS OF THE THEORETICAL FOUNDATIONS OF BALANCED DEVELOPMENT OF THE REGION**

**Rifat Hasanov**
*Nakhchivan University, Nakhchivan, Azerbaijan*

**Abstract.** At present, as an independent participant in world economic relations, the socio-economic development of each state, including the Republic of Azerbaijan, depends on the balanced development of its regions. The article analyzes the concept of balanced regional development and scientifically substantiates the need for a transition to it.
**Keywords:** Socio-economic development of regions, balanced development of the region, natural and economic resources, sustainable development.

**АНАЛИЗ ТЕОРЕТИЧЕСКИХ ОСНОВ СБАЛАНСИРОВАННОГО РАЗВИТИЯ РЕГИОНА**

**Рифат Гасанов**
*Университет Нахичевань, Нахичевань, Азербайджан*

**Резюме.** В настоящее время как самостоятельного участника мирохозяйственных связей социально-экономическое развитие каждого государства, в том числе и Азербайджанской Республики, зависит от сбалансированного развития ее регионов. В статье анализируется концепция сбалансированного регионального развития и научно обосновывается необходимость перехода к ней.
**Ключевые слова:** Социально-экономическое развитие регионов, сбалансированное развитие региона, природные и экономические ресурсы, устойчивое развитие.

## 1. Giriş

Müasir şəraitdə tədqiqatçıların sosial-iqtisadi sistemlərin altsistemi kimi regionların tarazlaşdırılmış inkişafının, başqa sözlə desək, regional tarazlığın təmin edilməsi problemlərinə maraqları getdikcə artmaqdadır. Belə ki, hal-hazırda dünya təsərrüfat əlaqələrinin müstəqil iştirakçısı kimi hər bir dövlətin, o cümlədən Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı onun regionlarının tarazlı inkişafından asılıdır. Məhz bu baxımdan açıq iqtisadiyyat şəraitində iqtisadi sistemin başlıca elementi olan dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi zərurətindən çıxaraq regionların tarazlaşdırılmış inkişafı probleminə xüsusi diqqət yetirilməlidir.

Müasir qloballaşma prosesləri, ölkələr arasındakı rəqabətin artması regional inkişafda fərqlərin və disproporsiyaların güclənməsinə səbəb olur. Ərazilərin insan, təbii və iqtisadi

resurslarının müxtəlifliyi əhalinin iqtisadi və sosial bərabərsizliyinin daha da güclənməsinə səbəb olur. Aparılan araşdırmalar sosial-iqtisadi inkişafın müxtəlif ölkələr arasında olduğu kimi hər hansı bir ölkə daxili regionlar arasında da fərqli sürətlə reallaşdığını göstərir. Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, bu gün Azərbaycanda müşahidə olunan mərkəzi və digər regionlar arasındakı sosial-iqtisadi fərqlilik yalnız ölkəmizə xas problem deyildir. Məhz bu nöqteyi-nəzərdən regionlararası inkişaf fərqliliklərinin ortaya çıxma səbəblərini və regional tarazlığın təmin edilməsi problemini araşdırmağa ehtiyac vardır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün rayon və regionları inkişaf etməlidir" sözləri hazırda respublikamızda regionların tarazlı inkişafının təmin olunması sahəsində görülən işlərin mahiyyətini açıqlayır"[1].

Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə son illərdə həyata keçirilən iqtisadi siyasət regionların kompleks və tarazlı inkişafına, ölkə üzrə makroiqtisadi gostəricilərdə regionların xüsusi çəkisinin yüksəlməsinə, onların infrastruktur təminatının yaxşılaşmasına, kommunal xidmətlərin səviyyəsinin yüksəlməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, investisiya qoyuluşlarının və məşğulluğun artmasına, yerlərdə sahibkarlığın inkişafının daha da sürətləndirilməsinə, yeni iş yerlərinin açılmasına, nəticə etibarilə yoxsulluğun azaldılmasına və əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə səbəb olmuşdur. Bu sahədə qarşıda duran vəzifələri ölkə Prezidentinin sözləri ilə aşağıdakı kimi ifadə etmək olar: "Bizim məqsədimiz və amalımız – Azərbaycanda sosial-iqtisadi problemləri tezliklə həll etmək, ölkəmizin bölgələrdəki mövqelərini daha da möhkəmləndirməkdir. Bu isə respublikamızda regionların tarazlı inkişafının təmin olunması problemlərinin öyrənilməsini çox vacib və əhəmiyyətli vəzifə kimi qarşımıza qoymuşdur"[2].

## 2. Regionun tarazlı inkişafının mahiyyəti

Birinci dünya müharibəsindən sonra dünya ölkələrinin *"inkişaf etmiş"* və *"inkişaf etməkdə olan və ya az inkişaf etmiş"* səviyyələrə ayrıla biləcək fərqli sosial-iqtisadi inkişaf səviyyələrində olduqları iqtisadçıların diqqətini cəlb etmişdir. İqtisadçılar ölkələr arasında müşahidə edilən sosial-iqtisadi inkişafın səviyyə fərqlərini hər bir ölkə daxilində fərqli səviyyələrdə təzahür etdiyini müəyyənləşdirdilər. "Sənayeləşmə hərəkatı" vasitəsilə iqtisadi inkişaf mərhələsinə qədəm qoyan ölkələr sərmayənin ərazi-sahə əlaməti üzrə yönəldiləcəyini bazar güclərinin öhdəsinə buraxırdılar. Nəticə etibarilə, ölkə regionlarının sosial-iqtisadi inkişaf səviyyəsindəki yaranan həddindən artıq fərqlər və bu fərqlərin yaratdığı sosial-iqtisadi problemlər iqtisadiyyatın yalnız bazar mexanizmi vasitəsilə tənzimlənilməsinin təhlükəli olduğunu

[1] İlham Əliyev. Regionlarin sosial-iqtisadi inkişafi dövlət proqramının 2-ci ilinə həsr olunmuş konfransda çıxışı, Bakı, 18 fevral 2006.

[2] İlham Əliyev. Azərbaycan Respublikası prezidentinin Naxçıvan Muxtar Respublikasındakı çıxışı. Naxçıvan, 17 mart 2007.

meydana çıxartdı. Belə ki, sərmayənin iqtisadiyyatın hansı sektoruna və sahəsinə yönəldiləcəyini bazar güclərinin öhdəsinə buraxdıqda, investisiya qoyuluşlarının sosial faydasının ikinci planda dayandığı, şəxsi mənafenin ön planda olduğu diqqəti cəlb edirdi. Bu baxımdan iqtisadi fəaliyyətlərin regionlar üzrə paylanmasına müdaxilə edərək yalnız bazar güclərinin üzərinə buraxmamaqla, investisiya qoyuluşlarında ölkə mənafeyi nəzərə alınmaqla regionların sosial-iqtisadi inkişaf səviyyələrinin tarazlaşdırılmasına cəhd göstərilməyə, həmçinin istər inkişaf planlarında, istərsə də dövlət proqramlarında regional qeyri-bərabərliyi azaltmaq istiqamətində iqtisadiyyata müdaxilə tədbirlərinə yer verilməyə başlandı.

İqtisadi sistemlərin və onun altsistemlərinin, başqa sözlə desək, regionların balanslaşdırılmış inkişafının nəzəri əsaslarının öyrənilməsi iqtisadi kateqoriya kimi tarazlaşdırmaya fərqli nöqteyi-nəzərdən baxmağa imkan verməkdədir. Nəzərdən yayınmamalıdır ki, bu anlayış və onunla bağlı terminlər hələ birmənalı şəkildə izah edilməmiş, iqtisad elminin müasir yanaşmaları əsasında tədqiq edilməsinə ehtiyac duyulmaqdadır. Fikrimizcə, məhz bu baxımdan açıq iqtisadiyyat şəraitində iqtisadi sistemin başlıca elementi olan dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi zərurətindən çıxaraq "regionun tarazlaşdırılmış inkişafı" anlayışının əsas məqamlarına xüsusi diqqət yetirilməlidir.

Tarixən "tarazlı inkişaf" anlayışı, əsasən, ekoloji problemlərlə bağlı olub ətraf mühitin mühafizəsi, təbii balansın qorunması və s. kimi məsələləri əhatə etmişdir. Tarazlı (və ya tarazlaşdırılmış) inkişaf anlayışını ilk dəfə 1915-ci ildə Ətraf mühitin mühafizəsi üzrə Kanada komissiyası təklif etmişdir. Komissiyanın fikrincə, hər bir nəsil təbii resursların və kapitalın müəyyən bir hissəsindən istifadə edə bilər. Lakin yadda saxlamaq lazımdır ki, bu resursların əsas hissəsinə toxunulmamalı və gələcək nəsillərə ötürülməlidir [10, s.52].

1960-1970-ci illərdə komissiya üzvlərinin ekoloji və sosial-iqtisadi problemlərinin hazırki və gələcək nəsillərin həyatı üçün təhlükə yaratdığı qənaətinə gəlməsi bəşəriyyətin tarazlı inkişafı ("Sustainable development" konsepsiyası) ideyasının formalaşmasına və inkişafına zəmin yaratdı. Komissiyanın müəyyən etdiyi və qlobal sistemin vəziyyətini qeyri-stabil kimi xarakterizə edən əsas problemlərə aşağıdakıları aid etmək olar:

1. Ekoloji problemlər. Bu qrupa bütün yol verilən hədləri aşan antropogen təsirlər nəticəsində ətraf təbii mühitin komponentlərinin tənəzzülü və ya pisləşməsi aid edilir. Tənəzzül və ya pisləşmə altında biz hidrosferin, atmosferin və litosferin çirklənməsini, heyvanlar və bitki aləminin müxtəlifliyinin azalmasını, səhralaşmanı, ozon təbəqəsinin gücdən düşməsini, genetik xəstəliklər və pozuntuları, yeni xəstəliklərin meydana gəlməsini, planetin təbii resurslarının tükənməkdə olmasını və s. başa düşürük.

2. Sosial problemlər. Müvafiq istiqamətlərə daxildir: aşağı həyat səviyyəsi olan ölkələrdə əhali artımı, əhalinin həyat səviyyəsindəki disproporsiyaların artması, xəstələnmə dərəcəsinin böyüməsi, əhalinin yoxsul təbəqəsinin sayının artması; aclığın yayılması; millətlərarası və etnik zəmində münaqişələr və s.

3. İqtisadi problemlər. Bu problemlərə ətraf mühitə və gələcək nəsillərin maraqlarına təsiri nəzərə alınmadan iqtisadi gəlirin artımını və pul zənginləşməsini, resurslara qənaət edən

qeyri-səmərəli texnologiyalardan istifadə edilməsini, ölkə regionlarının sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqlərin artmasını, ətraf mühitə yol verilən təsirin qiymətləndirilməsi meyarlarının olmamasını və s. aid etmək olar [9, s.8].

Yuxarıda qeyd edilən ekoloji və sosial-iqtisadi problemlərin dərk edilməsi ilə tarazlaşdırılmış inkişaf nəzəriyyəsi zamanla tədricən daha da populyarlaşır, beynəlxalq səviyyədə də inkişaf vektorunun dəyişdirilməsinin vacibliyi artıq özünü biruzə verirdi. Bunun başlıca sübutu 1962-ci ildə BMT-nın Baş Assambleyasının "İqtisadi inkişaf və təbiətin qorunması" adlı qətnaməsini qəbul etməsi idi. Bundan 10 il sonra 1972-ci ildə ətraf təbii mühit problemlərinin həllinin müzakirə olunduğu ilk ümumdünya Stokholm konfransında dünyanın 113 ölkəsinin nümayəndələri BMT-nin ətraf təbii mühitin qorunması üzrə Proqramının həyata keçirilməsi məqsədilə müvafiq təşkilatın yaradılması haqqında qərara gəldilər. Daha sonra 1983-cü ildə BMT-nin Baş katibinin təşəbbüsü ilə Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiya yaradılmışdır (ƏMİBK). Komissiyaya Norveçin baş naziri Qru Xarlem Brundtland başçılıq etmiş və məhz bu baxımdan komissiyanın adı bəzən Brundtland Komissiyası da adlandırılır.

Ətraf Mühit və İnkişaf Beynəlxalq Komissiyasının fəaliyyətinin əsas məqsədi dünyanın müxtəlif ölkələrinin əhalisini narahat edən ekoloji və sosial-iqtisadi problemlərin aşkar edilməsi olmuşdur. Fəaliyyətin dördüncü ilində Ətraf Mühit və İnkişaf Beynəlxalq Komissiyasının "Bizim ümumi gələcəyimiz" hesabatında bəşəriyyətin işgüzar fəaliyyətində və həyat tərzində dəyişiklik edilməsinin vacibliyi haqqında xəbərdarlıq səsləndirilmiş və qeyd edilmişdir ki, əks təqdirdə ətraf təbii mühitin kəskin pisləşməsi baş verəcək, bu isə bəşəriyyət üçün böyük problemlər törədə bilər. "Tarazlaşdırılmış inkişaf" anlayışına ilk dəfə məhz 1987-ci ildə BMT-nin Ətraf Mühit və İnkişaf Komissiyası tərəfindən hazırlanmış "Bizim ümumi gələcəyimiz" hesabatında rast gəlinmişdir. Ətraf Mühit və İnkişaf Beynəlxalq Komissiyasının fikrincə, iqtisadiyyat insanların istehlak və arzularını təmin etməlidir, lakin onların artımı planetin ekoloji və resurs imkanlarına uyğun olmalıdır.

1987-ci ildə BMT-nin Ətraf Mühit və İnkişaf Komissiyası tərəfindən hazırlanmış "Bizim ümumi gələcəyimiz" hesabatında rast gələnən "tarazlaşdırılmış inkişaf" anlayışından əgər bu vaxta qədər yalnız ekoloji kontekstdə istifadə olunurdusa, daha sonralar həmin anlayış sosial-iqtisadi tədqiqatlarda geniş tətbiq olunmağa başlandı.

Aydındır ki, bu anlayışın ekoloji aspekti müxtəlif iqtisadi nəzəriyyələrdə tədqiqatın vacib elementinə çevrilmişdir. Bu məfhumun ayrıca götürülmüş hər hansı bir regionun iqtisadiyyatına tətbiq edilməsi bu inkişaf vektorunun kiçik sahibkarlıq sektorundan başlayaraq iri dövlət korporasiyalarına qədər olan iqtisadiyyatın bütün subyektlərinin təsərrüfat həyatına inteqrasiyasına səbəb olur. Bir faktı qeyd etmək lazımdır ki, regionun tarazlaşdırılmış inkişafı təbii resursların məhdudluğu problemini region əhalisinin artan tələbatları şəraitində həll etmir. Ancaq iqtisadi inkişafın müəyyən bir mərhələsində tarazlaşdırılmış inkişaf cəmiyyətin ehtiyaclarını maksimum səviyyədə təmin etmək üçün mövcud təbii resursların ağıllı və səmərəli

şəkildə yenidən böldürülməsinə, eyni zamanda, gələcək inkişaf üçün təbii potensialın bir hissəsinin mühafizəsi məsələsinin həll edilməsinə imkan verir.

BMT-nin Ətraf Mühit və İnkişaf Komissiyasının əsas çağırışı cəmiyyətin yeni, ətraf mühit üçün təhlükəsiz iqtisadi inkişaf erasına keçməsindən ibarət olmuşdur. Bu halda "ətraf təbii mühit-cəmiyyət-insan" tarazlaşdırılmış inkişaf sisteminə keçilməsi haqqında məsələ qarşıya qoyulurdu ki, bu baxımdan tarazlı sosial-iqtisadi inkişaf konsepsiyası BMT-nin Ətraf Mühit və İnkişaf Komissiyasının fəaliyyətinin əsasını təşkil edir [10, s.52].

Tarazlaşdırılmış inkişaf konsepsiyası sistemli şəkildə ilk dəfə 1992-ci ildə Rio-de-Janeyroda tarazlı inkişaf üçün fəaliyyət planı təsdiqlənməklə, bəşəriyyətin üzləşdiyi ekoloji, sosial və iqtisadi problemlərin həlli yolları müəyyənləşdirilməklə formalaşdırılmışdır. Fikrimizcə, tarazlaşdırılmış inkişaf konsepsiyasından irəli gələrək qeyd edə bilərik ki, "tarazlaşdırılmış inkişaf" anlayışı iki yanaşmaya əsaslanır. Birinci – biosferasentrik yanaşmaya əsasən, ətraf təbii mühitə və biosferaya yalnız resurs mənbəyi kimi deyil, həm də yer üzündəki bütün həyatın əsası kimi baxılmalıdır. İkinci yanaşma – antroposentrik yanaşma bəşəriyyətin bundan sonra da mövcud olma ehtimalına və insanlığın təbii resurslara olan artan tələbatının təmini problemlərinin həllinə əsaslanır [14].

İqtisadi kateqoriya kimi tarazlaşdırılmış inkişaf anlayışı və onunla bağlı terminlər hələ birmənalı şəkildə izah edilməmiş və bu səbəbdən regionun tarazlaşdırılmış inkişafı məfhumunun müxtəlif mənalarda izahına rast gəlmək olur. Məsələn, BMT-nin Ətraf Mühit və İnkişaf Komissiyası tərəfindən tarazlaşdırılmış inkişaf anlayışı gələcək nəsillərin tələbatlarının təmin olunması imkanlarını təhlükə altında qoymadan indiki nəsillərin tələbatlarının təminatı kimi qəbul etmişdir.

Tərifdən göründüyü kimi, ən mühüm üstünlük əhali tələbatına, başqa sözlə desək, ehtiyacların ödənilməsinə verilir, məhdudiyyət isə ətraf təbii mühitin indiki və gələcək nəsillərin ehtiyaclarını ödəmək imkanlarına aiddir (şəkil 1).




**Şəkil 1.** Tarazlaşdırılmış inkişafın şərtləri

## 3. Elmi ədədiyyatlarda tarazlaşdırılmış regional inkişaf məsələləri

AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Ə.X. Nuriyevə görə, tarazlı və ya tarazlaşdırılmış regional inkişaf ölkənin davamlı inkişaf probleminin daxili tərkib hissəsi olaraq regionun iqtisadi, sosial və ekoloji altsistemlərinin nisbi bərabərləşdirilməsi (tarazlaşdırılması) sayəsində iqtisadi müstəqilliyin əldə edilməsi, özünü təminetmə, özünü maliyyələşdirmə nailiyyəti kimi başa düşülür. Əli Nuriyevə görə, XX əsrin 60-cı illərində

dünya kapitalizm və sosializm sistemi arasındakı mübarizə hər iki sistemə daxil olan ölkələrdə təbii resursların sürətlə istifadə olunması, ətraf mühitə külli miqdarda tullantının atılması və ətraf mühitin kəskin surətdə çirklənməsinə səbəb oldu. Bu dövrdə böyük şəhərlərin sürətlə inkişaf etməsi və təmərküzləşməsi digər bölgələrdən əmək qabiliyyətli əhalinin, xüsusilə işçi qüvvəsinin axınının baş verməsi ilə nəticələndi. Nəticədə regionların inkişaf səviyyəsinin yüksəldilməsi, onların inkişaf səviyyəsində olan kəskin fərqlərin aradan qaldırılması və inkişaf səviyyələrində tarazlığın yaradılması bütövlükdə ölkənin davamlı inkişafı üçün vacib amilə çevrildi [5, s.27].

Yuxarıda söylənən fikirlərə əsaslanaraq qeyd edə bilərik ki, tarazlaşdırılmış inkişaf anlayışının izahının və ya şərhinin çoxluğu, başqa sözlə desək müxtəlifliyi problemi onunla bağlı terminlərin iqtisadi elminin müasir yanaşmaları əsasında tədqiq edilməsinə zərurət yaratmışdır.

Rus iqtisadçısı akademik N.N. Moiseyev müasir inkişaf mərhələsində tarazlı (və ya tarazlaşdırılmış) inkişaf anlayışını siyasi təbəqələrdən azad edərək ona təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında elmi təsəvvürlərə cavab verən məzmun vermişdir. Akademik N.N. Moiseyevin fikrincə, sabitləşmiş termini dəyişdirmək lazım deyildir, ancaq onu müasir elmi dünyagörüşünə uyğunlaşdırılmış elmi əsaslandırılmış məzmunla doldurmağa ehtiyac var. Akademikin fikrincə, yalnız bundan sonra tarazlı (və ya tarazlaşdırılmış) inkişaf praktik fəaliyyət üçün əsas ola bilər [15].

Bir sıra iqtisadçı alimlər tarazlaşdırılmış inkişaf anlayışını ətraf təbii mühitin qorunması ilə bərabər, sabit sosial-iqtisadi inkişafla əlaqələndirirlər [18].

İ.N. Şurqalina sosial-iqtisadi sistemin tarazlaşdırılmış inkişafını əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması hesab edir. Bu zaman İ.N. Şurqalina məhdudiyyət kimi biosferin həcminin və ya imkanlarının son hədlərini müəyyənləşdirir. Belə ki, bu hədlərdən kənara çıxmaq ətraf mühitin özünü tənzimləməsinin təbii mexanizminin məhv olması səbəbindən ətraf təbii mühitdə qlobal dəyişikliyə səbəb olacaqdır. Yəni əgər sosial-iqtisadi sistemlər iqtisadi və təbii qanunauyğunluqlara tabe olmaqla fəaliyyət göstərərlərsə, onda onlar sabit inkişaf edirlər, lakin eyni zamanda sosial-iqtisadi sistemlər tarazlıq vəziyyətini itirmə riskinə səbəb ola biləcək müxtəlif amillərin təsirinə də məruz qala bilərlər [19].

V.E. Roxçin regionun, istənilən konkret məskunlaşma ərazisinin tarazlaşdırılmış inkişafının tədqiq edilməsinin üç əsas istiqamətini fərqləndirir:

1) Ekosistemlərin tarazlığını mühafizə edərək indiki və gələcək nəsillərin tələbatlarının ödənilməsini təmin edən iqtisadi artım kimi tarazlı inkişaf;

2) Ətraf təbii mühitə təhlükə törətməyən sabit sosial-iqtisadi inkişaf;

3) Region əhalisinin həyat keyfiyyətinin sabit olaraq yaxşılaşdırılması [6, s.52].

O.S. Pçelintsevin mülahizələrinə görə tarazlı inkişaf bütün iqtisadi, sosial, ekoloji proseslərin idarə edilməsinə və ərazidə məskunlaşma və istehsalın yerləşdirilməsi məsələlərinin razılaşdırılmış həllinə keçidi nəzərdə tutur [17].

"Tarazlaşdırılmış inkişaf" anlayışının digər bir tədqiqatçısı V.A. Kretinin öz araşdırmalarında iqtisadi tarazlığın əsas komponentlərini bu cür fərqləndirmişdir: maliyyə, ekoloji tarazlıq, investisiya və innovasiya fəaliyyəti, iqtisadi səmərəlilik və s. V.A. Kretinin ekoloji tarazlığa, iqtisadi səmərəliliyə və investisiya fəaliyyətinə təsir edən təkrar istehsalın kompleksliliyi amilini tarazlaşdırılmış inkişafın ən mühüm komponentlərindən biri kimi fərqləndirir [12].

Tədqiqatçılar A.S. Martınov, V.V. Artyuxov və V.Q. Vinoqradov "tarazlaşdırılmış sosial-iqtisadi inkişaf" anlayışının məzmununu gözdən keçirərkən tarazlı inkişafın sistemlərin fundamental xassələrindən biri olduğu fikrinə əsaslanırlar. Bu zaman onlar sistemləri davamlılıq xassəsinin tətbiq edilə biləcəyi 3 alt sistemə ayırırlar: təbii resurslar, maddi-texniki kompleks və cəmiyyət [1].

V.N. Lajentsev öz tədqiqatlarında tarazlı inkişafa regional təsərrüfat sisteminin əsas xassəsi kimi baxır. Bu xassə sistemin infrastruktur, əmək və təbii-resurs potensialını yaratmaq və istifadə etmək qabiliyyətini xarakterizə edir [13].

V.N. Vasilenko elmi araşdırmalarında tarazlı inkişafa regionun böhransız və ya təhlükəsiz inkişafı kimi baxır. Elmi araşdırmalarında V.N. Vasilenko regionun təhlükəsizliyinin iqtisadi, sosial və ekoloji kimi əsas formalarının nəzərə alınmasını məqsədəuyğun hesab edir [8, s.57].

Tarazlığın təmin edildiyi cəmiyyətdə xammal və enerji istehlakının həyata keçirilməsi şərtlərini Q. Deyli belə müəyyənləşdirmişdir:

1) Bərpa olunan təbii resursların və enerjinin istehlakı templərinin onların bərpa edilmə templərindən artıq (çox) olmadıqda;

2) Bərpa olunmayan təbii resursların istehlakı templərinin onların bərpa olunan əvəzedicilərinin axtarışı və işlənib hazırlanması templərindən artıq (çox) olmadıqda;

3) Tullantıların miqdarı və intensivliyinin onların ətraf təbii mühit tərəfindən udulması imkanlarından artıq (çox) olmadığı halda [8].

D.X. Medouz və başqa tədqiqatçılar hesab edirlər ki, tarazlaşdırılmış inkişaf həcm artımı ilə deyil, keyfiyyət inkişafı ilə xarakterizə olunur. Bu yanaşmanın müəllifləri "artım" və "inkişaf" anlayışlarını dəqiqliklə bir-birindən fərqləndirirlər. Tədqiqatçıların fikrincə, "böyümək" dedikdə, resursların istifadə həcminin artırılması və ya daha çox resurs sərfi hesabına artımın əldə edilməsi başa düşülür. "İnkişaf" isə vəziyyətin yaxşılaşdırılması məqsədilə potensial imkanlarının genişləndirilməsi və reallaşdırılması deməkdir [19].

S.A. Dyatlovun fikrincə, tarazlı inkişaf – indiki və gələcək nəsillərin tələbatlarını təmin etmək məqsədilə cəmiyyətin bütün üzvlərinə müxtəlif xidmətlər (o cümlədən iqtisadi, sosial və ekoloji) göstərmək iqtidarında olan cəmiyyətin inkişafıdır. S.A. Dyatlovun araşdırmalarına görə, həyat təminedici, iqtisadi, sosial və ekoloji sistemləri sabit vəziyyətdə saxlamaq olduqca vacibdir. S.A. Dyatlov, həmçinin tarazlı inkişafın bir sıra prinsiplərini – iqtisadi səmərəlilik, məqsədəuyğun mövcudluq, sosial ədalət və təbiətdən rasional istifadə prinsiplərini fərqləndirir [8].

Rus iqtisadçısı S.A. Dyatlovun tarazlı inkişaf haqqındakı elmi yanaşmalarına əsaslanan və öz araşdırmalarında bu elmi yanaşmalardan istifadə edən i.ü.f.d., dosent C.İ. Mahmudov qeyd edir ki, hər bir regionun özünəxas tarazlı inkişaf istiqaməti mövcuddur və məhz bu baxımdan Azərbaycanın özünəxas xüsusi sosial-iqtisadi və ekoloji inkişaf şəraiti olduğundan dövlət orqanları xarici ölkələrin tarazlı inkişaf modelinə keçid təcrübəsini kor-koranə təqlid etməməlidirlər [8].

V.İ. Danilov-Danilyanın fikrincə, tarazlı inkişafın "həll hədləri"nin mövcudluğu arasındakı əlaqə təhlükəsiz inkişafın sərhədlərini məhv etməyə can atan qüvvələrin qarşısını almağa məcbur edir. Qeyd edək ki, təhlükəsiz inkişafın sərhədləri xaricində cəmiyyətin inkişafı üçün real təhdidlər yarana bilər [7].

T.V. Yarıqina hesab edir ki, tarazlaşdırılmış inkişaf – indiki nəslin tələbatlarını təmin edən, bu zaman gələcək nəsillərin ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirməyən bir inkişafdır. T.V. Yarıqina öz araşdırmalarında tarazlaşdırılmış inkişafı, ilk növbədə, ekoloji tarazlıq kimi başa düşmüş və tədqiq etmişdir [17].

**Cədvəl 1.** Regionun tarazlaşdırılmış inkişafının təsnifatı

| Təsnifatın əlaməti | Regional inkişafın tarazlılıq tipləri |
|---|---|
| Regionun inkişaf istiqaməti | • İqtisadi tarazlılıq;<br>• Maliyyə tarazlılığı;<br>• Sosial tarazlılıq;<br>• Ekoloji tarazlılıq;<br>• Büdcə tarazlığı;<br>• Regionun sosial-iqtisadi inkişafının kompleks tarazlılığı. |
| Tarazlığın formalaşma xüsusiyyəti | • Təbii yolla formalaşan regional tarazlıq;<br>• Məqsədyönlü dövlət tənzimlənməsi vasitəsilə formalaşan regional tarazlıq;<br>• Dövlət – özəl əməkdaşlıq mexanizminin fəaliyyəti nəticəsində əldə olunmuş regional tarazlıq. |
| Zaman amili | • Regionun uzunmüddətli tarazlığı;<br>• Regionun ortamüddətli tarazlığı;<br>• Regionun qısamüddətli tarazlığı. |
| Subyektiv amilin rolu | • Yalnız obyektiv amillərin hesabına formalaşan tarazlıq;<br>• Subyektiv qarşılıqlı təsir nəticəsində formalaşan tarazlıq;<br>• Obyektiv və subyektiv amillərin sintezi nəticəsində formalaşan regional tarazlıq. |
| Sosial səmərə | • Regionun inkişafının sosial səmərə baxımından tarazlığı;<br>• Regionun inkişafının sosial destruktiv tarazlığı. |
| Kəmiyyət qiymətləndirməsinin imkanları | • İqtisadi-riyazi metodların köməyi ilə kəmiyyətcə qiymətləndirilən tarazlıq;<br>• İqtisadi-riyazi və ekspert metodlarının sintezi əsasında qiymətləndirilən tarazlıq;<br>• Səviyyəsinin bilavasitə kəmiyyətcə qiymətləndirilməsi mümkün olmayan tarazlıq. |

**Mənbə:** [20]

"Tarazlaşdırılmış inkişaf" anlayışına verilən müxtəlif yönümlü təriflərin çoxluğuna baxmayaraq qeyd etmək lazımdır ki, "tarazlaşdırılmış inkişaf" anlayışının izahı hələ də

mübahisəli olaraq qalır. Yuxarıda qeyd edildiyi kimi, bəzi iqtisadçılar öz diqqətlərini ancaq ekoloji komponent üzərində cəmləşdirirlər, digərləri isə əksinə olaraq bu tərifi çox geniş başa düşürlər və iqtisadi, sosial, ekoloji, siyasi, mədəni, mənəvi-etik və digər parametrlərdən təfsir edirlər. Yuxarıda qeyd olunan müxtəlif yönümlü yanaşmalar əsasında tarazlaşdırılmış inkişafın təsnifatlandırılması cədvəl 1-də təqdim olunmuşdur.

Cədvəl 1-də göstərildiyi kimi, inkişafın istiqamətindən asılı olaraq tarazlığı və ya başqa sözlə desək tarazlı inkişafı iqtisadi, maliyyə, ekoloji və digər növlərə ayırırlar.

Tərəfimizdən aparılan təhlil nəticəsində məlum olmuşdur ki, müxtəlif tədqiqatçıların tarazlaşdırılmış inkişafa verdikləri təriflərin əksəriyyətində iqtisadi, sosial və ekoloji komponentlərə fərqli baxış sərgilənir. Deməli, tarazlaşdırılmış inkişaf indiki və gələcək nəsillərin maraqlarını nəzərə almaqla sosial-iqtisadi tarazlığın və sabitliyin əldə olunması, ictimai münasibətlərin inkişafı, maddi rifah və mənəvi inkişaf üçün şəraitin təmin edilməsi, təbiətin rasional istifadə edilməsi və ətraf mühitin mühafizəsi ilə təmin olunur.

"Tarazlaşdırılmış inkişaf" anlayışına verilən müxtəlif yönümlü tərifləri təhlil edərkən "tarazlaşdırılmış inkişaf" termininin olduqca mübahisəli bir anlayış olduğu qənaətinə gəlirik. Belə ki, tarazlılıq və inkişaf anlayışları təbiətcə bir-birinə zidd anlayışlardır və ölkə iqtisadiyyatının inkişafının vahid istiqamətləndirici vektorunu təmsil etmək üçün müəyyən fərziyyələrin irəli sürülməsini tələb edirlər. Əlbəttə ki, bu "inkişaf"ın bazar münasibətləri və artan mənfəət şəraitində cəmiyyətin sosial-iqtisadi və ekoloji maraqlarını nəzərə almaqla ölkə iqtisadiyyatının müxtəlif sahələrinə təsirinin intensivləşdirilməsinə əsaslanan mütərəqqi xarakterə malik olması ilə bağlıdır. Ancaq dövlətin tarazlaşdırılmış inkişafına unitar vahid kimi baxılması, çox güman ki, ümumiləşdirici və sistemləşdirici xarakter daşıyacaqdır.

Beləliklə, regionun tarazlaşdırılmış inkişafı adı altında milli sosial-iqtisadi sistemin dayanıqlığının artırılması, uzunmüddətli perspektivdə cəmiyyətin və insanların maraqlarının ahəngdar əlaqələndirilməsi əsasında indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi məqsədilə regionun iqtisadi, sosial və ekoloji alt sistemlərinin tarazlaşdırılmış inkişafı başa düşülür.

**Nəticə.** Azərbaycan Respublikasının tarazlaşdırılmış inkişafına nail olmaq üçün onun hər bir regionunun tarazlı inkişafı təmin edilməlidir. Başqa sözlə desək, regionların inkişaf səviyyəsinin yüksəldilməsi, onların inkişaf səviyyəsində olan disproporsiyaların aradan qaldırılması və inkişaf səviyyəsində müəyyən dərəcədə tarazlığın yaradılması ölkənin davamlı inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan, fikrimizcə, iqtisadi fəaliyyətlərin regionlar üzrə yerləşməsinə müdaxilə edərək yalnız bazar güclərinin üzərinə buraxmamaqla və investisiya qoyuluşlarında ölkə mənafeyi nəzərə alınmaqla regionların sosial-iqtisadi inkişaf səviyyələrinin tarazlaşdırılmasına cəhd göstərilməlidir.

Regional tarazlığın təmin olunması, tarazlaşdırılmış regional inkişaf məsələlərinə metodoloji aspektdən yanaşdıqda ilk növbədə "region" anlayışının mahiyyətini aydınlaşdırmaq tələb olunur. Qeyd edək ki, hələlik elmi ədəbiyyatda "region" anlayışının hamılıqla qəbul olunmuş dəqiq tərifi yoxdur. Regionun mahiyyətinin müəyyən edilməsi və regionların

təsnifləşdirilməsi sahəsində də mübahisəli və problem xarakterli məsələlər çoxdur. Regional inkişaf problemlərinə həsr olunmuş elmi ədəbiyyatda "region" anlayışının müəyyənləşdirilməsinə, hansı ərazinin region hesab olunmasına müxtəlif yanaşmalar mövcuddur. Bunun əsas səbəbi regional problemlərə, habelə regionların təsnifləşdirilməsinə münasibətdə vahid metodologiyanın olmaması hesab olunur.

Apardığımız araşdırmanın nəticəsi olaraq qeyd edə bilərik ki, milli sosial-iqtisadi sistemin tarazlı inkişafının təmin edilməsində əsas səviyyə regiondur, belə ki:

- regionlar milli, tarixi, coğrafi, iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla formalaşdırılan ərazi vahidləridir;
- regionların sosial-iqtisadi potensialındakı, idarəetmə təcrübəsindəki fərqlər tarazlı inkişafın təmin edilməsinin fərqli vəzifələrini formalaşdırır;
- region ərazisinin ölçüləri və əhalisinin sayına görə dünyanın bir çox ölkələri ilə müqayisə oluna bilər.

Aparılan araşdırmalara əsaslanaraq qeyd edək ki, bütün regionlar üçün tarazlı inkişafın məcburi vahid forması və ya modeli ola bilməz. Ancaq hazırda ölkənin iqtisadi inkişafı prosesində regionların rolu artır və Azərbaycan cəmiyyətinin inkişafında ərazi amilinin əhəmiyyəti hamı tərəfindən qəbul edilir. Regionların sosial-iqtisadi inkişafının səviyyəsindəki fərqlilik Azərbaycan Respublikasının iqtisadi inkişaf prosesinə öz təsirini göstərir ki, məhz bu baxımdan regional tarazlığın təmini məsələlərinin araşdırılmasına getdikcə maraq artır. Məhsuldar qüvvələrin səmərəli yerləşməsi, regionların əmək, maddi və maliyyə ehtiyatlarından səmərəli istifadə olunması, istehsalın inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin ümumi istiqaməti kimi regionların tarazlı inkişafı məsələsi müasir inkişaf mərhələsində respublikamızda regional siyasətin ədalətliliyini və səmərəliliyini təmin edən çox mühüm amilə çevrilmişdir. Bu da tarazlı inkişafla bağlı bir çox məsələlərin həm elmi-nəzəri, həm də təcrübi baxımdan həllini ön plana çəkmişdir. Fikrimizcə, məhz bu baxımdan regional tarazlı inkişafın mahiyyəti açılmaqla, yanaşı regionun tarazlı inkişafına təsir edən amillər də müəyyənləşdirilməlidir.

## Ədəbiyyat

1. Арабов К.К. (2007), Измерение человеческого капитала. Российское Предпринимательство, No.4, 105-109.
2. Mahmudov C.İ. (3-4 may, 2019), Sosial-iqtisadi sistem kimi regionun tarazlı inkişafının idarə edilməsi xüsusiyyətləri və problemləri. Müasir Təbiət və İqtisad Elmlərinin Aktual Problemləri mövzusunda GDU-da keçirilən beynəlxalq elmi-praktik konfransın materialları. Gəncə, 75-78.
3. Mahmudov C.İ., Həsənov R.V. (2021), Regionun tarazlaşdırılmış inkişafı anlayışına nəzəri-konseptual baxış. Naxçıvan Universitetinin Elmi əsərləri, Vol.1, No.20, 16-24.

4. Meadows D.H., Meadows D.L., Randers J. (2004), The limits to growth: The 20-year update. Chelsea Green Pub., 338.
5. Nuriyev Ə.X. (2017), Davamlı və Tarazlı İnkişaf. Bakı, Avropa, 242.
6. Гневко В.А., Рохчин В.Е. (2005), Условия устойчивости развития региона как сложной хозяйственной системы. Российской Предпринимательство, No.12, 52-56.
7. Данилов-Данильян В.И., Лосев К.С. (2000), Экологический вызов и устойчивое развитие. М., Прогресс-Традиция, 414.
8. Дятлов С.А. (1998), Основы Концепции Устойчивого Развития. Санкт-Петербург: СПбГУЭФ, 155.
9. Зубаревич Н.В. (2008), Социально-экономическое развитие регионов: Мифы и реалии выравнивания. Журнал SPERO, No.9, 7-22.
10. Иванов В.А. (2008), Методологические основы устойчивого развития региональных социо-эколого-экономических систем. Экономические и Социальные Перемены: Факты, Тенденции И Прогноз, No.2, 50-59.
11. Игнатьева Е.Д., Мариев О.С. (2008), Методологические основы анализа устойчивости развития региональных социально-экономических систем. Вестник УГТУ-УПИ. No.5, 56-66.
12. Кретинин В.А., Омарова Т.Д., Чайковская Н.В. (2005), Управление региональной экономикой: Механизмы перехода от антикризисного к устойчивому развитию. Муром, 213.
13. Лаженцев В.Н. (2004), Экономический федерализм и региональная политика. Федерализм, No.3, 37-50.
14. Миланова Е.В. Индикаторы устойчивого развития и улучшения качества жизни населения. http://municipal-sd.ru/pdf-files/8-l/milanova-8-l-indikatory.pdf
15. Мишучкова И.Н. Цели государства и человеческий капитал. http://cyberleninka.ru/article/ri/tseli-gosudarstva-i-chelovecheskiy-kapital
16. Подпругин М.О. (2012), Устойчивое развитие региона: Понятие, основные подходы и факторы. Российское Предпринимательство, No.24, 214-221.
17. Пчелинцев О.С. (2004), Региональная экономика в системе устойчивого развития. М., Наука, 258.
18. Цапиева О.К. (2010), Устойчивое развитие региона: Теоретические основы и модель. Проблемы Современной Экономики, No.2, 307-311.
19. Шургалина И.Н. (2000), Реформирование российской экономики. Опыт анализа в сфете теории катастроф. Москва, Российская политическая энциклопедия, 221.
20. Перфилов В.А. (2012), Сущность и типы устойчивости развития региональных социально-экономических систем. Проблемы Современной Экономики, No.2, 101-102.